Tədbirdə çıxış edən təhsil naziri Misir Mərdanov KADO-nun xarici və daxili rəqəmsal sistemlərin hərtərəfli təmin edilməsi məqsədilə yaradılan və Koreya dövləti tərəfindən birbaşa dəstək verilən bir təşkilat olduğunu bildirib. Nazir qeyd edib ki, əhalinin informasiya və kommunikasiya sistemləri ilə təchizi, müasir texnologiya və avadanlıqlarla tanış edilməsi, informasiya almaq imkanlarının yaxşılaşdırılması bu təşkilatın əsas vəzifələrindəndir.

Misir Mərdanov onu da əlavə edib ki, bu layihəyə qoşulmaqda əsas məqsəd ən son informasiya texnologiyalarına yiyələnməklə qloballaşan dünyanın inteqrasiya proseslərində daha fəal iştirak etməkdir.

Mərasimdə BDU-nun rektoru Abel Məhərrəmov, Koreya Respublikasının İctimai İdarəetmə və Təhlükəsizlik nazirinin müavini Kin Young Ho, Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lyu Kvang Chul və KADO-nun vitse-prezidenti Park Von Geun çıxış ediblər.

Sonra lent kəsilərək mərkəzə baxış keçirilib.

Məlumat üçün qeyd edək ki, 3 geniş otaqdan ibarət olan bu mərkəzdə 75 kompüter və iki genişekranlı proyektorlar quraşdırılıb.